UOT 792

# TEATR SƏNƏTİ

**Şəhla Kərim qızı Heydərli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Dissertant**
**E-mail: rejissor71@mail.ru**

## NAXÇIVAN TEATRININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF TARİXİ HAQQINDA

**Xülasə:** Naxçıvanda teatr sənəti, qədim dövrlərdən meydan teatrı və şəbeh tamaşaları kimi mövcud olmuşdur. 1882-ci ildə Eynalı Sultanovun təşəbbüsü ilə Naxçıvanda əsas üzvləri müəllimlərdən ibarət "Müsəlman şiə dram incəsənəti cəmiyyəti" və "Ziyalı məclisi" formalaşmışdır. E.Sultanov 1884-cü ildə iki pər- dəli "Tatarka" ("Azərbaycan qızı") pyesini qələmə almışdır. Cəmiyyət və məclis üzvlərinin təşəbbüsü ilə 1886-cı il avqustun 12-də Hacı Nəcəf Zeynalovun evində M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının quruluşunda Naxçıvan teatrının təməli qoyulmuşdur. Sonradan M.F.Axundovun "Molla İbrahimxəlil kimyagər", "Lənkəran xanının vəziri", "Hacı Qara", "Xırs quldurbasan" komediyaları, ardınca N.Vəzirovun "Ev tərbiyəsinin bir şəkli", "Müsibəti-Fəxrəddin", "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qənbər"), Ə.Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu", N.Nərimanovun "Nadir şah", C.Məmmədquluzadənin "Ölülər" əsərləri və s. pyeslər səhnə təcəssümü tapmışdır.

**Açar sözlər:** Naxçıvan, teatr, rejissor, aktyor, tamaşa

Ötən əsrin əvvəllərində Naxçıvanın ictimai-mədəni mühitini xatırlasaq deməliyik ki, bu dövrün yerli ziyalıları demokratik ideyalarını teatr vasitəsi ilə xalq arasında yayılmasına, insanların mənəvi aləminin, inkişafın, maarifin və mədəniyyətin naminə çalışdıqlarına şahid oluruq. Odur ki, məhz ziyalılar istər, mövcud vəziyyətin müsbət məcraya yönəlməsi, istər sosial-mədəni mühitin əsaslı şəkildə dəyişməsi yolunda böyük səy göstərirdilər. Azərbaycanın teatr şəbəkəsində özünəməxsus yer tutmuşdur. Bu dövrdə təşkil olunan maarif yönlü cəmiyyətlərin fəaliyyəti, mütərəqqi düşüncəli maarifçi ziyalıları həmçinin, müxtəlif bölgələrin, o cümlədən Ordubadın, Culfanın, Şərurun məktəb müəllimləri də bu cəmiyyətlə sıx əlaqə saxlayırdılar. Müsəlman dram və sənət cəmiyyəti yaradan maarifpərvər ziyalılar xüsusi fədakarlıq göstərir vaxtaşırı hazırlanan səhnə əsərləri peşəkar teatr aktyorlarının bədii yaradıcılıq əzmini artırırdı.

Bu cür əzmlə çalışan ziyalıların yaratmaq istədikləri yeni mədəni mühit amalı çox çətinliklərə məruz qalırdı. Cəmiyyətin bir hissəsinin düşüncə səviyyəsinin aşağı olması, savadsızlıq bir çox məqamlarda öz təsirini büruzə verirdi. Məsələn, teatrın yeni çiçəklənmə dövrü tamaşaçı kütləsi tərəfindən birmənalı qarşılanmırdı. Bir növ tamaşaçılar arasında fikir ayrılığı yaranmışdı. Amma bununla belə, dram cəmiyyətlərinin nümayəndələri və maarifpərvər insanlar ruhdan düşmürdü.

Naxçıvan teatrının yaranmasında və sonrakı fəaliyyətində Eynalı Sultanovla bərabər burada yaşayanların da bir sıra böyük xidməti olmuşdur. O zaman Naxçıvan səhnəsində teatr tamaşalarının əksəriyyəti yay fəslində olurdu. Hacı Nəcəf bəy Zeynalovun evində 1883-cü ildə 2 pərdədən ibarət "Tatar qızı" adlı tamaşa nümayiş olunmuşdur. Əsər elə həmin ildə Eynali Sultanov tərəfindən qələmə alınmışdı. Komediya iki pərdədən ibarət idi, mövzusu isə dövr üçün aktual idi. Qısa olaraq şərh edə bilərəm ki, obrazları bir qədər az olan əsərdə qadınları ifşa etmək istəyənlər pislənilir. Komik səhnələr də öz növbəsində tamaşanın daha maraqla izlənməsinə xidmət edir. Naxçıvanda izlənilən bu ilk tamaşa kifayət qədər rezonans yaratdı və müsbət dəyərləndirildi. Çox müsbət haldır ki, müəyyən zaman kəsişməsinə baxmayaraq davamlı şəkildə tamaşalar nümayiş etdirilirdi. Yaranan çətinliklər dəfələrlə hasil olan fasilələrə səbəb olsa da yaradıcılıq şövqü kifayət qədər sezilirdi və nəticədə ədiblərimizin sənət əsərləri işıq üzü görürdü.

Naxçıvandakı həvəskar dərnəyin repertuarında yarandığı dövrdən etibarən N. B.Vəzirovun, C.Məmmədquluzadənin, N.Nərimanovun, Ə.B.Haqverdiyevin və bir çox başqa ədiblərin pyesləri başlıca yer tutmuşdur. Naxçıvan teatrının inkişafına Azərbaycan səhnəsinin görkəmli simaları olan R.Təhmasibin, C.Məmmədquluzadənin, H.Ərəblinskinin, M.Əliyevin, S.Ruhullanın böyük təsiri olmuşdur. S.Ruhulla S.Rəhmanın "Toy" komediyasına ilk dəfə Naxçıvan teatrında quruluş vermişdir. Əfsanəvi teatr fədaisi Hüseyn Ərəblinski də Naxçıvan teatrının inkişafı üçün bacardığını əsirgəməmişdir. Belə ki, 1909-cu ildə öz truppası ilə İrəvandakı qastroldan qayıdan H.Ərəblinski yolüstü Naxçıvana gəlir. Repertuarında olan tamaşanı Naxçıvanda da nümayiş etdirir. Onun quruluş verdiyi "Bəxtsiz cavan" tamaşası naxçıvanlılar tərəfindən də hazırlandığı üçün H.Ərəblinski həmin tamaşadakı epizodik obrazlara yerli aktyorları da cəlb edir.

Bəhs etdiyimiz dövrdə Naxçıvan teatrının səhnəsində yerli dramaturqların o cümlədən İsmayıl Zahidin "Hümmət ağa", Müzəffər Nəsirlinin "Azadlıq günəşi", Qurban Qurbanovun "Ayrım" və s. pyesləri oynanılmışdır [1]. Yeri gəlmiş- kən demək lazımdır ki, C.Cabbarlının bütün əsərləri Naxçıvan səhnəsində təcəs- süm etdirilmiş və onların tamaşası uzun illər boyu teatrın repertuarında layiqli yer tutmuşdur. Ə.Haqverdiyevin də pyesləri, xüsusən də faciələri Naxçıvan teatrının

təşəkkülünə və inkişafına, aktyor heyətinin yaradıcılıq potensialının təkmilləşməsinə həlledici təsir göstərmişdir.

XX əsrin əvvəllərində Naxçıvan teatrı yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu dövrdə teatr həvəskarları olan aktyorlar vahid truppada birləşmiş və 1922-ci ildə Dövlət Dram Teatrı yaradılmışdır. Məhz bu illərdə H.Cavidin "Şeyx Sənan" və C.Cabbarlının "Aydın" pyeslərinin tamaşaya qoyulması ilə teatr özünün ideya-estetik fəaliyyət istiqamətini müəyyən etmişdir.

Ötən əsrin 30-cu illərində C.Cabbarlının "Almaz", "Yaşar", M.İbrahimovun "Həyat", S.Rəhmanın "Toy", S.Vurğunun "Vaqif" pyeslərinin təcəssümü ilə yaradıcılıq fəaliyyətinin yeni mərhələsinə qədəm qoymuşdur. Sözügedən dövrdə Naxçıvan teatrına (İ.Musayev, S.Mövləvi, M.Mirişli, İ.Həmzəyev, Ə.Haqverdiyev, X.Qazıyeva, F.Əlixanova və b.) bir sıra istedadlı aktyor və rejissorların simasında gəlmiş və teatr öz repertuarında Azərbaycan dramaturgiyası ilə yanaşı, dünya klassiklərinin əsərlərinə müraciət etməklə öz yaradıcılıq diapazonunu genişləndirməyə nail olmuşdur.

İkinci Dünya müharibəsi teatrın repertuarında əsasən qəhrəmanlıq və vətənpərvərlik ruhunda yazılmış pyeslərin tamaşaları yer almışdır. Sonrakı illərdə Rza Təhmasibin rəhbərliyi ilə teatrın kollektivi yeni bir çox əsərlər tamaşaya qoyuldu. Sonrakı ildə təkrar olaraq “Ölülər” pyesi yenidən tamaşaya qoyuldu. Əlamətdar fakt olaraq demək lazımdır ki, həmin dövrdə fəaliyyəti dövlət tərəfindən tam dəstəklənmişdir. Belə ki, o zaman teatr binası əsaslı təmir edilmiş, lazımlı avadanlıqlarla təmin olunmuşdur. Teatrın zalında və foyesində hisli lampalardan istifadə olunurdu amma təmirdən sonra onlar iri çilçıraqlarla əvəz edildi. Sonrakı dövrlərdə teatrın səhnəsində Azərbaycan dramaturgiyasının əsərləri ilə yanaşı Sofokl, U.Şekspir, F. Şiller, K.Qoldoni, Lope de Veqa, N.V.Qoqol, A.N.Ostrovski, A.P.Çexov, M.Qorki, N.Hikmət və b. dünya klassiklərinin əsərləri də uğurla tamaşaya qoyulmuşdur. Müxtəlif illərdə Naxçıvan səhnəsində fəaliyyət göstərən rejissorlardan Kazım Ziya (1924), Sidqi Ruhulla (1931-1933), Səməd Mövləvi (1933-1935), Nəsir Sadıqzadə (1972-1973), Yusif Yulduz (1937-1938) və digərlərinin bu teatrın inkişaf tarixində əvəzsiz xidmətləri olmuşdur.

Yaradıcılıq tarixinin ayrı-ayrı illərində teatrın səhnəsində dram əsərləri ilə yanaşı, opera və operettalar, o cümlədən Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Ər və arvad", Z.Hacıbəyovun "Aşıq Qərib", "Əlli yaşında cavan", "Evliykən subay", S. Rüstəmovun "Beş manatlıq gəlin", "Durna", F.Əmirovun "Gözün aydın", S.Ələsgərovun "Ulduz", "Özümüz bilərik" və s. musiqili əsərləri uğurla göstərilmişdir.

Keçən onilliklər ərzində Naxçıvan teatrında Z.Həmzəyeva, M.Quliyev, S.Hüseynova, Ə.Qardaşbəyov, A.Şahsuvarov, R.Cəfərxanova, H.Ağayev, Y.Haqver-

diyev, K.Hüseynov, P.Məmmədova, T.Məmmədova, İ.Bənənyarlı, T.Mövləvi, M.Səfərov, İ.Məmmədov, N.Həmzəyev istedadlı aktyor, eyni zamanda B.Qələndərli, V.Babayev, V.Əsədov, Ə.Lalayev, K.Quliyev kimi özünəməxsus üslubundan rejissor nəsli yetişmişdir. Yeni nəslin nümayəndəsi olan Kamran Quliyev səhnəyə ilk addımını aktyor kimi atmışdır. 1996-cı ildən rejissorluqla məşğul olur. Müxtəlif janrlarda yazılmış Həmid Arzulunun "Ərsizlər və arsızlar", "İtilənən xəncərlər", "Əlincə qalası", "Məhəbbət mərhəmət deyil", Rauf İçərişəhərlinin "Arzum çin oldu", Ramiq Muxtarın "Şəhərli kürəkən", Həsən Elsevərin "Qorxulu oyun", Hüseyn Cavidin "Topal Teymur", "İblis" və "Səyavuş", Elçinin "Mənim ərim dəlidir" və "Mənim sevimli dəlim", Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı", Mirzə Fətəli Axundzadənin "Lənkəran xanın vəziri", Mir Cəlalın "Dirilən adam", Səməd Vurğunun "Fərhad və Şirin" əsərlərinə səhnə quruluşu verib [2]. Kamran Quliyevin çağdaş səhnəni duyması, kollektivin imkanlarına bələdliyi tamaşanın uğurlu həllinə səbəb olurdu. K.Quliyevin quruluşunda tamaşaya qoyulan Elçinin "Dəlixanadan dəli qaçıb" tragikomediyasında ötən əsrin 90-cı illərinin əvvəllərində hakimiyyətdə olan səriştəsiz məmurlar kəskin satira atəşinə tutulur. Tamaşada hadisələrin ictimai mahiyyəti, cəmiyyətdə baş verən mənəvi eybəcərliklər bir qəzet redaksiyası daxilində cərəyan edir. Sovet dövründən qalmış iş prinsipi, insanların qeyri-sağlam düşüncələri rejissorun təsvirində tamaşaçılara təqdim olunur. 40-dan artıq tamaşaya quruluş verən rejissorun estetik özünüifadə üslubu, eləcə də aktyorlarla işinin yaradıcılıq üslubu olduqca maraqlıdır. Əsərdəki redaktor obrazını məharətlə yaradan Rza Xudiyev öz emosional ifa tərzi ilə obrazın daxili dünyasını, hiss və həyəcanlarını, gərgin məqamları real səpkidə yaratmaqla fərqlənir.

Yeni nəslin dünyagörüşünü formalaşdırmaq, onların milli mənəvi dəyərlər əsasında tərbiyə etmək məqsədilə Naxçıvanda Dövlət Uşaq Teatrı yaradılmışdır. Hazırda Naxçıvan Muxtar Respublikasında Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Naxçıvan şəhər, Şərur, Ordubad, Babək və Şahbuz Rayon Xalq teatrları fəaliyyət göstərir. Sevindirici haldır ki, illərdən bəri çiyin-çiyinə çalışan sənətkarların ərsəyə gətirdikləri yaradıcılıq nümunələri yaddaşlarda dərin iz buraxmışdır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 2008-ci ildə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi geniş şəkildə qeyd olunmuşdur. Ötən illərdə xalq teatrlarının C.Məmmədquluzadənin "Kamança", Ə.Haqverdiyevin "Ac həriflər", H.Mirələmovun "Xəcalət", Tofiq Həsənovun "Şöhrət ardınca", G.Fiqeyredonun "Ezop", Ü.Hacıbəyovun "Ər və arvad", İ.Əfəndiyevin "Unuda bilmirəm", M.Əlizadənin "Qəşəmin yuxusu", N. B.Vəzirovun "Dələduz" kimi əsərləri əsasında hazırlanan tamaşaları ictimaiyyət

tərəfindən maraqla qarşılanmışdır. Mühüm olan budur ki, böyük və şərəfli sənət yolu keçmiş bu teatrın çağdaş dövrdəki fəaliyyəti bütün dövrdə Muxtar Respublikada teatr həyatını təmin edir, yeni inkişaf mərhələsində yetişməyi labüdləşdirir.

### Ədəbiyyat siyahısı


1.Xəlilov Ə., (1964) Bakı "Naxçıvan teatrının tarixi".
2.Rəhimli İ., Vəzirov C., (2008) Bakı "Naxçıvan teatrı".
3.İsrafilov İ. A.İskəndərovun teatrı. Bakı, Mars-Print 2001.
4.İsrafilov İ. Zaman Rejissor Poetika. Bakı, Elm, 1999.
5.İlham Rəhimli. Azərbaycan teatr tarixi, Bakı 2004.
6.Vəliyev Ə. Teatr sənətimiz: dünən, bu gün, sabah...



**Шахла Карим кызы Гейдарли**


## ОБ ИСТОРИИ СТАНОВЛЕНИЯ И РАЗВИТИЯ НАХЧЫВАНСКОГО ТЕАТРА


**Резюме:** Театральное искусство существовало в Нахчыване с древних времен в виде площадного театра и уподоблений. В 1882 году по инициативе Эйнали Султанова в Нахчыване были образованы «Мусульманское шиитское общество драматического искусства» и «Интеллектуальное собрание», основными членами которых были учителя. Э. Султанов написал двухактную пьесу «Татарка» («Азербайджанская девушка») в 1884 году. 12 августа 1886 года по инициативе общества и членов совета в постановке комедии М.Ф.Ахундова «Месье Жордан и дервиш Мастали-шах» в доме Гаджи Наджафа Зейналова был заложен фундамент Нахчыванского театра. Затем последовали комедии М.Ф.Ахундова «Молла Ибрагимхалил-алхимик», «Министр Ленкоранско-го хана», «Хаджи Кара», «Хирс гулдурбасан», затем Н.Вазирова «Картина домашнего воспитания», «Беда-Фахреддин», «Мы пришли из дождя мы попали под дождь» («Гаджи Ганбар»), «Распадающийся союз», «Несчастный юноша», «Сказочная ведьма» А. Хагвердиева, «Надир шах» Н. Нариманова, Мертвые» и др. пьесы были воплощены на сцене.



**Ключевые слова:** Нахчыван, театр, режиссер, актер, спектакль.

**Shahla Karim gizi Haydarli**

**ABOUT FORMATION AND HISTORY OF DEVELOPMENT OF NAKHCHIVAN THEATRE**

**Summary:** Theatrical art has existed in Nakhchivan since ancient times as square theater and simile performances. In 1882, on the initiative of Eynali Sultanov, the "Muslim Shiite Drama Art Society" and "Intellectual Assembly" were formed in Nakhchivan, the main members of which were teachers. E. Sultanovwrote the two-act play "Tatarka" ("Azerbaijani girl") in 1884. On August 12, 1886,on the initiative of society and council members, the foundation of the Nakhchivantheater was laid in the production of M.F. Akhundov's comedy "Monsieur Jordanand the Dervish Mastali Shah" in Haji Najaf Zeynalov's house. Later, M.F. Akhun-dov's comedies "Molla Ibrahimkhalil, the Alchemist", "Lankaran Khan's Visier","Haji Kara", "Khirs Guldurbasan", followed by N. Vazirov's "A Picture of HomeEducation", "Trouble-Fakhreddin", "We came out of the rain, we fell into the rain"("Haji Qanbar"), A. Hagverdiyev's "Disintegrating alliance", "Unfortunate youngman", "Fairy witch", N. Narimanov's "Nadir shah", J. Mammadguluzade's "TheDead", etc. the plays have been embodied on the stage.

**Key words:** Nakhchivan, theater, director, actor, performance.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Elçin Cəfərov**